

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (23.839)

23 oktyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva oktyabrın 22-də Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və qızları Leyla Əliyevaya DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində yaradılan şərait barədə məlumat verib. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi sağlamlıq imkanları məhdud şəxslərin, o cümlədən müharibədə sağlamlıqlarını itirənlərin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir.

Mərkəzin yaxınlığındakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından Prezident İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı və qızları Leyla Əliyevanı salamlayıblar.

* * *

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva həmin gün Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanış olublar.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İndoneziyanın ölkəmizdəki səfiri ilə görüşüb



Oktyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri ikitərəfli əlaqələrdən bəhs etmiş, 2018-ci ildə İndoneziya nümayəndə heyətinin Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı tədbirlərində iştirakını, eləcə də İndoneziya səfirlərinin Naxçıvan Muxtar Respublikasına səfərlərini xatırlatmışdır. İkinci Qarabağ müharibəsində İndoneziyanın üzv olduğu İslam Əməkdaşlıq Təşkilatının Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayan Ali Məclisin Sədri keçirilən səmərəli görüşlərin bundan sonra da əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyini diqqətə çatdırmışdır.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edən Hildi Hamid muxtar respublikada olmaqdan şərəf duyduğunu və Naxçıvanın hərtərəfli inkişaf etdiyini bildirmiş, bunu ulu öndər Heydər Əliyev siyasətinin uğurlu davamı kimi dəyərləndirmişdir. Səfir muxtar respublika ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiklərini və burada görülən işləri təcrübə mübadiləsi aparılmaqla İndoneziyada tətbiq etmək istədiklərini qeyd etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Səfir Hildi Hamid: “Naxçıvanın turizm potensialından indoneziyalıların istifadə etməsi fəaliyyətimin əsas istiqamətlərindən biri olacaq”

*İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamid oktyabrın 21-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.*

İndoneziyanın səfiri səfər çərçivəsində ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsinə dərin ehtiramını bildirib, Heydər Əliyev Muzeyini ziyarət edib.

İndoneziyalı diplomat “Əshabi-Kəhf” Dini-Mədəni Abidə Kompleksini ziyarət edib, Duzdağ Fizioterapiya Mərkəzində olub. Səfir Naxçıvan Muxtar Respublikasında yaşayan İndoneziya vətəndaşları ilə də görüşüb.

Naxçıvan Biznes Mərkəzinə gələn qonağın nəzərinə çatdırılıb ki, mərkəzin sərgi salonunda muxtar respublikada fəaliyyət göstərən müəssisələrin yüzlərlə çeşiddə məhsulları nümayiş olunur. Məlumat verilib ki, hazırda muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bu məhsulların 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

“Gəmiqaya Meyvə Məhsulları Kompleksi”, “Gəmiqaya Bərəkət Qida Məhsulları” və “Ləzzət” Qida Sənaye Məhdud Məsuliyyətli cəmiyyətlərində olan səfirə məlumat verilib ki, hər üç müəssisə muxtar respublikanın ərzaq tələbatının ödənilməsində mühüm rol oynayır.

Həmin gün qonaq Naxçıvan şəhərindəki “Saat Meydanı” turistik istirahət mərkəzində İndoneziya mədəniyyəti ilə bağlı təşkil olunmuş təqdimat mərasimində iştirak edib, milli rəqslərin nümayişini izləyib.



Səfir Hildi Hamid “Şərq qapısı” qəzetinə müsahibəsində deyib: “Bu, mənim Naxçıvana ilk səfərimdir, buna görə də məqsəd regionla yaxından tanış olmaqdır. Artıq iki gündür, buradayam və demək istəyirəm ki, Naxçıvan haqqında təəssüratlarım çox zəngindir. Ən çox xoşuma gələn buranın təmizliyi, insanların mehriban və qonaqpərvər olmalarıdır. Bu müddətdə Naxçıvanda bir çox yerlərdə olduq, Duzdağ, Əshabi-Kəhf ziyarətgahı çox cəlbedici məkanlardır. Bunlar Naxçıvanın qədim tarixə, mədəniyyətə malik olduğunu göstərir. Həmçinin burada yerli ərzaq məhsullarının istehsal olunduğu müəssisələrdə olduq. Müəssisələrin iş şəraiti, istehsal olunan keyfiyyətli məhsullar Naxçıvanın həm də bu yöndə inkişafını göstərir. Düşünürəm ki, Naxçıvanın böyük potensialı var və İndoneziyada tanınmalıdır. Bu diyarın turizm potensialından indoneziyalıların istifadə etməsi fəaliyyətimin əsas istiqamətlərindən biri olacaq. Bizim ölkədən Türkiyə və ya ərəb ölkələri istiqamətində hərəkət edən turistləri Azərbaycana, xüsusilə Naxçıvana cəlb etmək mümkündür”.

Qeyd edək ki, İndoneziya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hildi Hamidin Naxçıvan Muxtar Respublikasına səfəri bu gün başa çatır. Həmin gün qonaq Naxçıvan şəhərində yerləşən “Naxçıvanqala” Tarix Memarlıq və “Xan sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Komplekslərində olacaq, Xalça Muzeyini ziyarət edəcəkdir.

**Səbuhi HƏSƏNOV**

## Xalq rəssamı Kamil Əliyevin 100 illik yubileyi münasibətilə elmi konfrans keçirilib

*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə Azərbaycan dekorativ-tətbiqi sənətinin tanınmış nümayəndəsi, Xalq rəssamı Kamil Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə elmi konfrans keçirilib.*



Konfransı bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Azərbaycan Respublikası Prezidentinin “Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2021-ci il 12 oktyabr tarixli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş Tədbirlər Planının təsdiq edilməsi haqqında” 2021-ci il 16 oktyabr tarixli sərəncamlarının əhəmiyyətini vurğulayıb, qeyd olunan dövlət sənədlərinin elm və mədəniyyət xadimlərinə göstərilən qayğının təzahürü olduğunu bildirib.

Vurğulanıb ki, Kamil Əliyev tarixi qədim köklərə dayanan xalçaçılıq sənətinin yaşadılmasında, onun milli elementlərlə zənginləşdirilməsində müstəsna rol oynamış, nəinki ölkəmizdə, eləcə də ölkə hüdudlarından kənarda Azərbaycan xalçalarını təbliğ etmişdir. Dekorativ-tətbiqi sənət növlərində xüsusi dəstxəti ilə seçilən rəssamın müəllifi olduğu şah əsərlər bu gün rəssamlıq sənətinə yiyələnmək istəyən gənc mütəxəssislər üçün zəngin yaradıcılıq məktəbidir. Kamil Əliyev yaradıcılığında rəssamlıq sənətinə məhəbbət xüsusilə diqqət çəkir, onun müəllifi olduğu portret xalçalarda dahi şəxsiyyətlərin əks olunması rəssamın tariximizə, mənəvi dəyərlərimizə bağlılığının təzahürüdür.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransda “Xalq rəssamı Kamil Əliyevin təşkilati fəaliyyəti” mövzusunda məruzə edib. Kamil Əliyevin müəllifi olduğu eskizlər gözoxşayan yaradıcılıq nümunələrində əksini tapmışdır. Məruzədə rəssamın fəaliyyəti, rəngarəng yaradıcılıq üslubu haqqında ətraflı məlumat verilib, diqqətə çatdırılıb ki, “Azərxalça” Elmi Yaradıcılıq İstehsalat Birliyinin uğurlu inkişafı da məhz Kamil Əliyevin yorulmaz və səmərəli fəaliyyətinin nəticəsidir.

Elbrus İsayev məruzə əsnasında Naxçıvan Dövlət Universitetində xalçaçılıq sənətinin öyrənilməsi və gənclərə təbliği istiqamətində görülən işlər haqqında konfrans iştirakçılarını məlumatlandırıb, yaradılan dərnəklərin fəaliyyətindən, əldə olunan uğurlu nəticələrdən söz açıb.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov, AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Xalçaşünaslıq sektorunun müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Sara Hacıyevanın, Naxçıvan Müəllimlər İnstitutunun kafedra müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Həbibə Allahverdiyevanın və Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Qənbərovanın müxtəlif mövzularda məruzələri maraqla dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Turizm və media nümayəndələri: “Muxtar respublikada həm infrastruktur qurulub, həm də insan potensialı inkişaf etdirilib. Bu mənada, Naxçıvan turizm destinasiyası hazır, populyar destinasiyadır”

*Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə agentliyin, turizm bürosunun əməkdaşları, media nümayəndələri olmaqla, ümumilikdə, 48 nəfərin iştirakı ilə muxtar respublikamıza media-tur təşkil olunub. Qonaqlar tur çərçivəsində muxtar respublikanın tarixi-mədəni, gəzməli-görməli yerlərində olub, Naxçıvanın tarixi, mədəniyyəti, istehsal potensialı barədə zəngin məlumat əldə ediblər. Media-turun 2-ci günü iştirakçılar “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Nuh Peyğəmbərin türbəsi, “Badamlı Mineral Sular” MMC, Batabat yaylağı, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, “Duzdağ” oteli və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar. Badamlı bulağı və Zorbulaq qonaqlarda böyük maraq yaradıb. Qonaqlardan bir neçəsi “Şərq qapısı” qəzetinə müsahibəsində media-turun əhəmiyyəti barədə danışıb, muxtar respublika ilə bağlı təəssüratlarını bölüşüblər.*




***Kənan Quluzadə – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədr müşaviri:*** – Azərbaycan Dövlət Turizm Agentliyi Naxçıvan Muxtar Respublikası Turizm Departamenti ilə birgə turizmin inkişafı istiqamətində 2020-2023-cü illəri əhatə edən xüsusi bir proqram hazırlayıb, bu proqram çərçivəsində media-tur təşkil olunub. Müxtəlif yöndə, təxminən, 30 KİV nümayəndəsi bu layihədə iştirak edir və deyə bilərəm ki, ikigünlük səfər çox uğurlu alındı. Bu tədbir iki mühüm amili özündə birləşdirir. Belə ki, biz turizm agentliyi olaraq jurnalistləri muxtar respublikanın turizm potensialı ilə yaxından tanış edirik, onlar da burada gördüklərini öz oxucularına, tamaşaçılarına çatdıracaq. Ümumilikdə isə hər birimizin məqsədi Azərbaycanımızın gözəl diyarını tanıtmaq, ölkəmizin inkişafına kiçik də olsa, töhfə verməkdir.

Onu da deyim ki, Naxçıvan turizm destinasiyası hazır, populyar destinasiyadır. Belə ki, muxtar respublikada həm infrastruktur qurulub, həm də insan potensialı inkişaf etdirilib, yəni bu sahə üzrə kadrlar hazırlanıb. Bu mənada, pandemiyadan öncə Naxçıvanda turist sayının ilbəil artımının müşahidə olunması heç də təsadüfi deyil. Bir məsələni də



qeyd etmək lazımdır ki, yaxın illər ərzində pandemiya ilə əlaqədar dünyada daha çox daxili turizm inkişaf edəcək. Məhz bu media-turun qarşısında duran vəzifə də muxtar respublikanın turizm potensialını daxildə, ölkənin digər bölgələrində daha geniş şəkildə təbliğ etməkdir. Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşları da bu məsələyə olduqca peşəkar şəkildə yanaşır. Düşünürəm ki, çox uğurlu nəticələr əldə edəcəyik.

Naxçıvanla bağlı təəssüratlarım barədə onu deyə bilərəm ki, mən buraya 2000-ci ilin əvvəllərində jurnalist olaraq gəlmişəm, sonralar bir neçə dəfə səfər etmişəm. Sonuncu dəfə isə 2019-cu ildə burada olmuşam. Əlbəttə ki, bugünkü ilk gördüyümdən yer-göy qədər fərqlidir. 20 il ərzində böyük dəyişikliklər gedib, qədim diyarımız əsl inkişaf, quruculuq yolu keçib, daha da gözəlləşib. Mən Naxçıvanı çox sevirəm, buranın xüsusi aurası var. Bu aura təkcə coğrafiya baxımından deyil, həm də naxçıvanlı dostlarımızın yaratdığı auradır.

***Şahanə Rəhimova – azvision.az internet portalının müxbiri:*** – Naxçıvanla əyani tanışlığımıza vəsilə olan media-tur çərçivəsində qədim diyarımızın bir sıra yerlərində olduq. İlk üz tutduğumuz ünvan ümummilli liderimizin adını daşıyan muzey oldu ki, burada mən dahi şəxsiyyətin həyatına, çoxşaxəli dövlətçilik fəaliyyətinə məxsus çox maraqlı, heç vaxt görmədiyim fotoları, eksponatları gördüm. Daha sonra Bayraq Meydanına getdik, oradakı muzeydə Naxçıvan xanlığının bayraqlarının fotoları, nümunələrini, ərazisini əks etdirən xəritə ilə tanışlıq məndə böyük təəssürat yaratdı. Möhtəşəm Əlincəqalaya səyahət də olduqca maraqlı anlarla yadda qaldı. Orada olarkən tariximizi bir daha vərəqlədik, Əlincəqala uğrunda Teymurləngin 14 illik mübarizəsi gözlərimiz önündə canlandı. Qalaya qalxanda, oranı öz gözlərimizlə görəndə bir daha dərk etdim ki, bizim ulu babalarımız necə mübariz, qətiyyətli olub. Məncə, turistlərin mütləq şəkildə gəlib-görməli yerlərdən biridir Əlincəqala. Naxçıvana gələsən, amma bu qədim abidəni ziyarət etməyəsən, olmaz. Bir jurnalist kimi qayıdanda mütləq şəkildə Naxçıvandan bir reportaj hazırlayacağam. Naxçıvan mənim yaddaşımda çox müsbət xarakterik xüsusiyyətlərə malik bir diyar kimi qalacaq.

***Nuranə İbrahimova – “ARB” Televiziyasının müxbiri:*** – Özüm ixtisasca tarixçiyəm. Az bir müddətdir, jurnalistika ilə məşğulam. Çox sevirəm bu sahəni. Onun qazandırdığı üstün cəhətlərdən biri də budur ki, görmədiyim yerləri gəzib görürəm. Tarixdən Naxçıvanın Əlincəqala, Əshabi-Kəhf kimi bir çox qədim yerləri barədə məlumatlarımız olsa da, əyani şəkildə görmək, incəliklərinə tamaşa etmək baxımından media-tur vacib rol oynadı. Əlincəqalanın zirvəsinədək 1800-ə yaxın pillə qalxdıq, çox maraqlı anlar yaşadıq, əcdadlarımızın qəhrəmanlıqlarına heyran olduq. Batabat, Ağbulaq, ümumiyyətlə, Naxçıvanın hər bir yeri gözəldir, baxımlıdır, zövqoxşayandır. Küçələr çox genişdir, insanların təmizliyə riayət etməsi təqdirəlayiqdir. Sakitliyə böyük önəm verən bir insan kimi müsbət enerji aldım, ruhumu oxşadı bu diyar.

Onu da qeyd edim ki, Naxçıvanın turizm potensialı yetərincədir. Eyni vaxtda həm qədimliyi qorumaq, həm də müasirləşmək hər diyarın əldə edə bilməyəcəyi özəllikdir. Bir çox şəhərlər bunu bacarmır. Ya tarix restavrasiya adıyla dəyişdirilir, modernləşdirilir, ya da müasir görkəmində ciddi nöqsanlar olur. Ancaq çox sevindirici haldır ki, Naxçıvanda tarixiliklə müasirlik bütün incəlikləri ilə yüksək səviyyədə, vəhdət şəklində saxlanılır. Təbii ki, bütün bu amillər turizm cəlbediciliyini artırır. Əvvəllər Naxçıvana gediş-gəlişimiz elə də əlverişli deyildi, lakin torpaqlarımız azad olunduqdan sonra yaranan situasiya, açılacaq dəhliz gələcəkdə buraya tez-tez üz tutmağımıza imkan verəcək. Bu həm də xarici turistlərin Naxçıvana marağını, gəlişini artıracaq. Media-tur çərçivəsində gördüklərimin fotoşəklini çəkib sosial şəbəkələrdə də paylaşdım. Fikrimcə, Naxçıvanın gözəlliyi onun fərqliliyində, müxtəlifliyində, bir neçə amili bir arada tuta bilməsindədir və bunu bir yazıya sığdırmaq qeyri-mümkündür. Ona görə də qayıdandan sonra burada gördüklərim barədə bir neçə məqalə yazmağı düşünürəm.

***Zeynəb Mirzəyeva – “Space” Televiziyasının müxbiri:*** – İkigünlük media-tur biz jurnalistlərin informasiyalılığı baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki beləcə hadisə yerində oluruq, həmin ərazilərin insanlarının nə düşündüyünün, nə hisslər keçirdiyinin yaxından şahidi olmaq şansı qazanırıq. Bu mənim Naxçıvana ilk gəlişimdir və qədim yurdumuz barədə zəngin məlumatlar əldə edə bildim. Möminə xatın türbəsi, Nuh Peyğəmbərin məzarüstü abidəsi çox maraqlı elementlər ilə zəngindir. Naxçıvanqaladakı eksponatlar da olduqca maraqlı, diqqətçəkicidir. Ümumiyyətlə, hər bir turistin maraq dairəsinə



uyğun muxtar respublikanın imkanları mövcuddur.

***Səidə Adelşinova – Azərbaycan Turizm Bürosunun Brend və marketinq kommunikasiyaları şöbəsinin sektor müdiri:*** – Muxtar respublikanın təbiətinə söz ola bilməz. Burada təbiətə qayğını, sevgini gördük. Ekoturizm, qış turizmi burada inkişaf edir. Bunları məhsul formasında turistlərə təqdim etmək çox vacibdir. Biz Azərbaycan haqqında buraxılan broşürlərdə müxtəlif regionların, o cümlədən Naxçıvanın tarixi abidələrini, mətbəx nümunələrini təbliğ edirik. Mətbəx haqqında broşürlər xaricdə işləyən tur-operatorlar üçün nəzərdə tutulur və turistlərdə Naxçıvan haqqında ümumi təsəvvür yaradır. Eyni zamanda həmin broşürlərdə Naxçıvanın tarixi abidələrini göstərmək tariximizi tanıtmaq işində mühüm rol oynayır. Naxçıvan həm də özünün brend məhsulları ilə seçilən diyardır. “Sirab”, “Badamlı” kimi brendlərin böyük tarixi vardır. Bu kimi keyfiyyət göstəricisi olan məhsulların xaricdə təbliği ölkəmizin tanıdılmasında mühüm rol oynayır. Naxçıvan həm də təmiz, təhlükəsiz bölgədir. Avropa turistləri də belə yerləri axtarırlar. İnanıram ki, jurnalistlərin, blogerlərin buraya səfərindən sonra Naxçıvan daha da yaxşı tanınacaq, nəqliyyat dəhlizi işə düşəndən sonra isə buraya gələn turistlərin sayı da artacaq.

***“Kaspi” qəzetinin əməkdaşı Rufik İsmayılovla həmsöhbət olduq:*** – Naxçıvan mənim doğma diyarımdır. Burada jurnalistika sahəsi üzrə təhsil almışam. “525-ci qəzetlə yanaşı Naxçıvanda – “Şərq qapısı”nda və televiziyada çalışmağım da mənə böyük təcrübə qazandırıb. Bura stabil, sakit, nizam-intizamlı bir yerdir. Naxçıvanda hər addımbaşı quruculuq, abadlıq işləri görülür. Mən 2008-ci ildən buradan çıxmışam, o zaman da qurulurdu, inkişaf etdirilirdi. Naxçıvan qədim tarixi olan abidələr diyarıdır. Burada mindən çox abidə qeydiyyata alınıb, pasportlaşdırılıb. Həm də görürük ki, insanlar abidələri qoruyur, bərpa edir və özündən sonrakı nəsillərə ötürürlər. Bunun özü də tariximizin yaşadılması, gələcəyə ötürülməsi baxımından təqdirəlayiq hadisədir. Naxçıvan qədim zamanlardan türklərin yaşadığı, qurub yaratdığı bir məkan olub. Sevindirici haldır ki, indiki nəsillər də bizdən əvvəlki nəsillərin ənənəsini yaşadır və sonrakı nəsillərə ötürürlər. Xoşbəxtik həm də ona görə ki, Azərbaycan xalqı olaraq Şanlı Qarabağ Zəfərinin şahidləri olduq, eyni zamanda o əvəzedilməz Qələbənin sevinc hisslərini yaşadıq. Naxçıvanlıların Vətən müharibəsindəki qəhrəmanlıq və şücaəti isə xüsusilə qürurvericidir. Böyük Qələbə sayəsində artıq Zəngəzur dəhlizinin istifadəyə verilməsi planlaşdırılır ki, bu nəqliyyat dəhlizi Azərbaycanın əsas hissəsini onun bir parçası olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, bununla da uzun illərdir, blokada vəziyyətində olan muxtar respublika inkişafının yeni mərhələsinə qədəm qoyacaqdır.

***“Baku” İnternet Televiziyasının müxbiri Orxan Qurbanov*** dedi ki, bir çoxları kimi mənim də Naxçıvana ilk səfərimdir. Sözün açığını desəm, iki gün, üç gün Naxçıvanı kəşf etməyə kifayət etmir. Amma biz bu qısa müddətə əsas görməli yerləri sığdırdıq. Azərbaycanda gedən böyük tarixi proseslərə şahidlik etmiş Əlincə qalasında olduq və qalanın əzəmətini gördük. Bundan əlavə, Naxçıvanın mərkəzi yerlərində şəhərin



necə səliqəli, təmiz olduğunun şahidi olduq. Atabəylər dövründə Şərqdə qadına ilk ehtiram əlaməti olaraq tikilmiş Möminə xatın türbəsini, Xan Sarayını və digər yerləri ziyarət etdik. Hamısında ayrı bir tarix yaşayır. Naxçıvan Biznes Mərkəzinə, “Badamlı” Mineral Sular Zavoduna da getdik. Sevindiricidir ki, muxtar respublika ərazisində bir çox istehsal sahələri yaradılıb. Bu, idxalın qarşısını alır, bununla diyar öz tələbatını ödəyir, eyni zamanda bütün bu sahələr yeni iş yerləri deməkdir. Yeni iş yerləri də əhalinin, insanların sosial rifah halının yaxşılaşdırılmasına xidmət edir. Bu baxımdan Naxçıvan ölkəmizdə öz tələbatını ödəyən bir diyar kimi də özünəməxsus yer tutur.

***Hüseyn Məmmədov – Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Turizm Könüllüləri Təşkilatının direktoru:*** – Çox şəhərlərdə olmuşam. Bu şəhərləri Naxçıvanla müqayisə etdikdə deyə bilərəm ki, turistlər üçün burada daha diqqətçəkən məqamlar var. Tarixsevər turistlər üçün muxtar respublika ərazisindəki yerli, ölkə və dünya əhəmiyyətli abidələrlə əyani tanışlıq çoxları üçün maraqlıdır. Burada həddindən artıq böyük turizm potensialı var. Düşünürəm ki, bununla bağlı təbliğat işləri daha da gücləndirilməlidir. Beynəlxalq arenada, geniş auditoriyada Naxçıvanın turizm potensialı təbliğ olunmalıdır. Bu səfərimizin də əsas məqsədi elə Naxçıvanın turizm potensialını öyrənmək, araşdırmaq, buradakı Turizm Departamenti ilə birlikdə bir fəaliyyət planı hazırlamaqdır. İstərdik ki, gələcəkdə bütün dövlət turizm agentliyinin və Azərbaycan Turizm Bürosunun kollektivi ilə birlikdə işçi qrup yaradılsın, Naxçıvanın turizm ehtiyatları barədə işlər görülsün. Naxçıvanla bağlı çox iş görmək istəyirik. Əsas məqsədlərimizdən biri Naxçıvandakı zəngin turizm potensialını dünyaya tanıtmaqdır. Təşkil etdiyim turizm könüllüləri təşkilatının çox istərdik ki, burada bir nümayəndəliyi təsis olunsun və Naxçıvanda bildiyiniz kimi, bir çox ali təhsil və orta ixtisas təhsili müəssisələri fəaliyyət göstərir. Həmin gəncləri bu təşkilata cəlb edib, onları təlimatlandırıb maarifləndirməklə Naxçıvanda kadr potensialı ilə bağlı daha çox işlər görək.

***Gülnar Əliyeva – qafqazinfo.az internet portalının müxbiri:*** – Naxçıvandakı təbiilik məndə xoş duyğular yaratdı. İnsanlarınız gülərüz və qonaqpərvərdir. Bu diyarda möhtəşəm ziyarətgahlar, muzeylər, bölgənin tarixini özündə əks etdirən, nəsillərə çatdıran tarixi abidələr var. Hər biri də bir-birindən gözəl və maraqlıdır. Onların qorunub saxlanılması böyük vətənpərvərliyin, tarixə bağlılığın nişanəsidir. Burada ən çox Əlincəqala tarixi abidəsi diqqətimi cəlb etdi. Oranın tarixiliyi sirli aləm kimi insanı heyran edir. Bizə məlumat verildi ki, çox yüksəklikdə yerləşən bu tarixi abidə əsrlərin yadigarı kimi bərpa olunub. Hər tərəfdə təmizlik, abadlıq hökm sürür. Abad binalar, geniş yollar, bu diyarın hər qarışı jurnalistlər üçün ilham mənbəyidir. Bakıya qayıdan kimi ilk işim buradakı ecazkar gözəllikləri qələmə almaq olacaq.

***Rahim Hüseynov – “Real” Televiziyasının operatoru:*** – Naxçıvan haqqında ilk təəssüratım elə hava limanında yarandı. İstər müasir infrastruktur və xidmət şəraiti, istərsə də işçilərin davranışı, təqdirolunasıdır. Şəhər infrastrukturu elə qurulub ki, yolboyu nəzər saldıqca görürsən ki, heç bir nöqsan yoxdur. Naxçıvanda böyük inkişaf və tərəqqinin olması hər kəsin gözü qarşısındadır. Bütün bunların hamısı mərhələli şəkildə Naxçıvan Muxtar Respublikasının inkişafına, ən əsası isə insanların rahatlığına hesablanmış tədbirlər kimi daha böyük perspektivlər vəd edir. Bir azərbaycanlı kimi vətənimdə belə yüksək inkişafın olması məni qürurlandırır, sevindirir.

✍ **Nail ƏSGƏROV**
✍ **Güntac ŞAHMƏMMƏDLİ**
✍ **Gülcamal TAHİROVA**

*İllər öncə yaşadığım Füzuli rayonunun Alxanlı kəndində qonşuluqda bir neçə ailə var idi. Onlara bəziləri məcburi köçkün, bəziləri də qaçqın deyirdi. Özləri də bu kəlməni eşidəndə baxışları dəyişirdi. Bu kəlmələr onları çox incidirdi, amma ən çox həsrət incidirdi onları. Yurd həsrəti, evlərinin, obalarının düşmən nəfəsində qalmaq həsrəti. Sona xala Qubadlıda dünyaya göz açmışdı. Həmin gün – işğal günü yurdundan bir ovuc torpağı ovuclayıb kəlağayısının bir küncünə qoyub, düyünləyib özü ilə götürmüşdü. Gündə yüz dəfə o torpağı iyləyib ətrini duymasa, yaşaya bilməzdi. Vəsiyyət də edirdi ki, əgər mən dünyadan Qubadlını yenidən görməmiş köçsəm, bu torpağı sinəmə töküb dəfn edin məni. Düzdür, Azərbaycanın o başı da, bu başı da Vətəndir, ay qızım, amma insanın doğulub böyüdüyü yurdun yeri tam başqadır, – deyirdi həmişə.*

# Qubadlı həsrəti sona yetdi



Ötən ilin bu günü cənab Prezidentin xalqa müraciətini dinləyir, hansı rayonumuzun işğaldan azad edildiyi xəbərini alacağımızı səbirsizliklə gözləyirdik. Qubadlı şəhəri dediyi o anda telefonun səsinə qarışdı alqış sədaları. Sona xala idi zəng vuran, ağlayırdı, şükür Allaha, yurdum qayıtdı, – deyirdi. Gedəcəyəm, sürünə-sürünə gedəcəyəm yurduma, torpağını ovuclayıb illərdir, yurd həsrəti çəkə-çəkə kor olan gözlərimə sürtəcəyəm, – deyirdi. Sevincinin həddi-hüdudu yox idi bütün azərbaycanlıların, amma qubadlılıların sevinci hamıdan artıq idi. Bütün xalqımızın arzusu reallaşmışdı, igid oğullarımız azad etmişdi yurdumuzu. Və budur, azadlığın birinci ildönümünü yaşayır Qubadlı. O, qollarını açıb igid oğlunu, Ali Baş Komandanını qarşıladı. Ölkə başçısı 2020-ci il dekabr ayının 23-də Qubadlıya səfəri zamanı deyirdi: ***"Bu gün səhərdən yağış yağırdı, biz Qubadlıya çatanda gün çıxdı. Təbiət də bizi salamlayır, bizi alqışlayır. Qubadlıya öz sahibləri qayıdıb. Qubadlının işğaldan azad edilməsi tarixi hadisə idi. Oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsi bizim qələbəmizi yaxınlaşdırdı. Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi, şəhidlər vermişik. Onların arasında Qubadlı rayonundan olan Milli Qəhrəman Şükür Həmidov öz doğma diyarı uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidova mən Milli Qəhrəman adını Aprel döyüşlərindən sonra verdim, göstərdiyi qəhrəmanlığa görə. Allah ona rəhmət eləsin! Allah bütün şəhidlərimizə rəhmət eləsin! Qubadlı rayonu ölkəmizin ən gözəl rayonlarından biridir və qısa müddət ərzində lazım olan bütün bərpa işləri də nəzərdə tutulur. Xarici ekspertlər cəlb olunub, dəvət edilib, onlar bütün qiymətləndirmə işlərini aparacaqlar... Mən müharibədən əvvəl dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, bu gün Azərbaycan güclü ölkədir və tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən o vaxt təkcə iqtisadi yox, o cümlədən hərbi potensialımızı da nəzərdə tuturdum. Tarix və müharibənin nəticələri onu göstərdi ki, mən haqlı idim. Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan əsgəri! Yaşasın Azərbaycan!"***

### *Tarixə bir nəzər və ya 30 ildə nələr oldu*

Zəngəzur mahalının qədim yaşayış məskəni, uca dağları, şiş qayaları, sərin bulaqları, gözəl meşələri, gur çayları, münbit torpağı olan Qubadlı 1993-cü il avqustun 31-də işğal olundu. 1988-ci ildən başlayan qeyri-bərabər döyüşdə bu torpaq uğrunda yüzlərlə şəhid verən Qubadlının 30 mindən çox əhalisi məcburi köçkün həyatı yaşamağa məhkum edildi. Ermənistanın iki rayonu ilə (Qafan və Gorus) həmsərhəd olan bu rayonun əhalisinin uzun illər alın təri və zəhmətlə topladıqları var-dövlət, tikdikləri evlər, yollar, körpülər, bir sözlə, hər şey ermənilər tərəfindən dağıdıldı, talan olundu. İşğalçılar o torpaqda daşı daş üstdə qoymayıblar. Evləri söküb, son daşına qədər aparıblar. 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsindən ibarət rayon erməni vandalları tərəfindən viran qoyulub. Rayonun işğalı zamanı ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-Diyarşünaslıq Muzeyini də talan ediblər. IV əsrə aid Gavur dərəsindəki ibadətgah, V əsrə aid Qalalı və Göyqala abidələri, XIV əsrdə tikilmiş Dəmirçilər türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır. Muradxanlı kəndindəki V əsrə aid Qalalı, Əliquluuşağı kəndindəki Göyqala abidələri, XIV əsrə aid Yazı Düzündəki Cavanşir, Dəmirçilər kəndində olan 2, XVII əsrə aid Gürcülü kəndində, XVIII əsrə aid Xocamsaxlı kəndində olan türbələr ondan xəbər verir ki, Qubadlıda qədim dövrlərdən elm-mədəniyyət mərkəzləri olub.

1993-cü ilin əvvəllərində hakimiyyət ölkəni idarə etmək əvəzinə kürsünü boş qoyub qaçdı. Respublika iqtisadi, hərbi, siyasi böhran içindəydi. Cinayətkarlıq baş alıb gedirdi. Bunlar azmış kimi yerli xəyanətkar qüvvələr xalqı vətəndaş müharibəsi vəziyyətinə gətirmişdi. Müdrik, qətiyyətli və uzaqgörən siyasətçi Heydər Əliyev xalqın tələbi ilə o məqamda hakimiyyətə gəldi ki, artıq vətəndaş müharibəsi başlanmışdı. Məhz onun hakimiyyətə yenidən qayıdışı xalqımızı bu çətin vəziyyətdən qurtardı.

Həmin vaxtlar Azərbaycanın müstəqilliyini istəməyən düşmən qüvvələr həm xaricdən, həm də daxildən ulu öndərimizin hakimiyyətini yıxmağa ciddi cəhd göstərdilər. 1993-cü ilin iyul-avqust aylarında bütün cəbhəboyu erməni hücumlarının miqyası genişləndirildi. Eyni mərkəzdən idarə olunan yerli xəyanətkar qüvvələr özlərinə tabe olan hərbi birləşmələri döyüş mövqelərindən çıxardılar. Cəbrayılın düşmənin nəzarətinə keçməsi ilə rayonun Şərq tərəfdən geniş bir ərazisi müdafiəsiz qalmışdı. Həkəri çayı boyunca Zilanlı, Mahruzlu, Xanlıq kəndlərindən tutmuş Başarat zonasınadək yerli əhali silaha sarılsa da, qüvvələr qeyri-bərabər idi. Zirehli texnikanın qarşısını 4-5 adama düşən bir avtomatla qorumaq mümkünsüz idi. Avqust ayının 30-da erməni hərbi birləşmələri yalnız yerli mülki əhalinin qoruduğu Gəyən zonası istiqamətindən güclü hərbi texnikanın müşayiəti ilə hücuma keçdi.

Əsas zərbə Xanlıq istiqamətinə yönəldilmişdi. Qeyri-bərabər döyüşdə xanlıqlılar nə qədər fədakarlıq göstərsələr də, erməni tankları kəndə soxuldu. Həkəri çayı boyunca Muradxanlı, Balasoltanlı, Xoçik istiqamətində rayona basqın edən erməni hərbi birləşmələri kəndləri yandırdı, dinc əhaliyə divan tutdu.

Qeyri-bərabər döyüşlərdə torpaqlarımızın bir hissəsini, Vətən oğullarını itirsək də, ulu öndərimizin hakimiyyətə gəlməsi nəticəsində düşmən hücumunun qarşısı alındı. 1994-cü ildə əks-hücumla bir neçə yüksəklik geri alınsa da, hələ nizamlı ordu olmadığı üçün daha genişmiqyaslı döyüş aparıla bilmədi.

Tarixdə elə insanlar var ki, onlar öz dərin düşüncə və istedadları ilə tarixin gedişini dəyişdirə bilib. Ulu öndərimiz də həmin dahi insanlardan idi. Dövlətimizin başının üstünü alan qara buludlar da onun gəlişi ilə dağıldı. Dahi rəhbərin qayıdışının yaratdığı ruh yüksəkliyi ilə düşmənin qarşısında məğrurca dayanıb döyüşən, canını Vətən yolunda qurban verən oğullarımızın sayəsində torpaqlarımıza uzanan əllər kəsildi. Dahi rəhbər gərgin əməyi nəticəsində atəşkəsə nail oldu.

### *Bütün yollar Qarabağa aparır*

Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış ərazilərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. İşğaldan azad olunan rayonların bərpası sistemli şəkildə həyata keçirilir. Belə ki, Azərbaycan Prezidentinin tapşırığına əsasən birinci mərhələdə dəymiş ziyanın qiymətləndirilməsi, daha sonra infrastruktur layihələrinin icrası həyata keçiriləcək. Bundan sonra sosial obyektlərin inşası, yaşayış üçün şəraitin yaradılması və evlərin tikilməsi reallaşdırılacaq. Qubadlı rayonunda son dövrlərdə quruculuq işləri tam sürətlə davam etdirilir, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində dövlətimizin başçısının tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarıdır.

Yeni Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, sözügedən rayonların 30-dan artıq yaşayış məntəqəsini əhatə edir.

### *Qələbənin bir yaşı*

30 il kimsəsiz, əzizləri olmadan yaşadı o dağlar. Yana-yana, yanıqlı bayatılar deyə-deyə dünyadan köçdü neçə-neçə insan. Beləcə, ömür keçdikcə bu yurd həsrətinin yarası qabıq qoydu. Amma sağalmadı yurd torpaq həsrəti, o yaranın qabığı tez-tez soyuldu. Dağın yamacındakı o yurdda, o ocaqda, tüstülənən odun peçinin üstündə dəmlənən plovda qaldı çoxlarının fikri, xəyalı. İllər sonra yeni-yeni yaşayış massivləri salındı, köhnə binalarda, dar otaqlarda, çadırlarda yaşayan qubadlılılar oraya köçürüldü. Amma şərait nə qədər yaxşı olsa da, xəyallar, arzular o qoşa dağların ətəyindəki yurdda qalmışdı. Elə o yurdun da fikri xəyalı öz doğmalarının yanında idi. Artıq 30 il idi ki, hər bir azərbaycanlı Qarabağ adlı qisas daşıyırdı ürəyində. İllər keçdikcə ordumuzun gücü, dövlətimizin iqtisadi qüdrətinin artması həsrətimizin bitəcəyi günü yaxınlaşdırırdı. Və həmin gün gəldi... 44 günlük Vətən müharibəsində ürəyi Vətən eşqi ilə döyünən oğullar irəli atılaraq cənnətimizi geri almağa nail oldular. Biz bir olduq, güclənib düşmənin başına ildırım kimi çaxdıq. Azərbaycan xalqına Qaçaq Nəbi kimi Xalq qəhrəmanı, Həcər kimi igid qadın, Valeh Bərşadlı kimi general, görkəmli ziyalılar bəxş edən Qubadlı əsl sahibinə qaytarıldı. Şanlı bayrağımız bütöv Azərbaycanımızın başı üzərində qürurla dalğalandı. Qubadlının mərkəzində ulu öndərimizin layiqli davamçısı, Ali Baş Komandan cənab İlham Əliyevin əlləri ilə üçrəngli bayrağımız göylərə çəkildi. Bu mənzərələri gördükcə işğaldan azad edilən yurdlarımızın sakinləri ilə bərabər, hərkəs sevinir. 29 il idi ki, hər il eyni gündə Qubadlının işğal gününü ürəkağrısı ilə anırdıq. Bu gün isə "Qubadlı azaddır, Qubadlı həsrəti bitdi. Sonsuza kimi bitdi bu həsrət" deməkdən şərəf duyuruq.

*Bu gün bütün işğaldan azad edilmiş rayonların sakinləri kimi Qubadlı sakinləri də öz evlərinə tələsir öz çırağını öz ocağını yandırmağa can atır. Tarixin ən şanlı qələbəsini qazanan xalq vəhşi düşmənin dağıtdığı yurd yerlərini yenidən gülüstana çevirəcək. Abad yurdumuzda əmin-amanlıqla yaşamağa başlayacağımız gün isə qələbənin əsl təntənəsi olacaq.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Ağciyər Xəstəlikləri Dispanserinə yeni tibbi avadanlıqlar verilib





*Cari ildə aparılan yenidənqurma və əsaslı təmir işlərindən sonra dünən "Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri" publik hüquqi şəxsə yeni tibbi avadanlıqlar verilib.*

Təqdimat mərasimində Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov çıxış edərək bildirib ki, ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da səhiyyənin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində səhiyyə müəssisələrinin təmir və bərpası, ən müasir avadanlıqlarla təchiz olunması, şəhər və kəndlərdə yeni ambulatoriya və xəstəxanaların istifadəyə verilməsi bu sahədə aparılan islahatların əsasını təşkil edir. Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin əsaslı təmiri də bu istiqamətdə aparılan işlərin davamıdır.

Səhiyyə naziri yenidənqurma və əsaslı təmir işlərinin, yeni, müasir tibbi avadanlıqlarla təchizatın "Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri" publik hüquqi şəxsin fəaliyyətində yeni mərhələnin əsasını qoyacağına, əhaliyə tibbi xidmətin keyfiyyətinin daha da yüksəlməsinə şərait yaradacağına əmin olduğunu bildirib, kollektivə uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin baş həkimi Günay Quliyeva, dispanserin stasionar şöbəsinin müdiri İlqar Rzayev, Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva yeni avadanlıqların təqdim olunmasına, yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq ediblər.

Aparılan yenidənqurma işlərindən sonra dispanserdə çarpayı sayı artırılaraq 42-yə çatdırılıb. Dispanser mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunub. Burada 40 balon qoyulub. İntensiv terapiya otaqlarında, eyni zamanda bütün palatalarda oksigen xətti yaradılıb. Hər bir çarpayı oksigen xəttinə birləşmiş cihazlarla, xəstə başı monitorlarla təmin olunub. Tibbi məlumat sistemi tibb işçilərinin işini optimallaşdırmaq və hər bir xəstə üçün fərdi olaraq tibbi qərar qəbul etmək üçün intellektual dəstəyi təmin edir.

Ümumilikdə, 19 palata və 42 çarpayı yeri olan dispanserdə funksional reanimasiya və intensiv terapiya çarpayıları, mebel avadanlıqları yenilənib. Stasionar, dispanser şöbələri və referans laboratoriya, foyelər, dəhlizlər əsaslı təmirdən sonra yeni görkəm alıb. Mərtəbə növbətçiləri, həkim və tibb bacıları üçün rahat şərait yaradılıb.

Həkim-funksionalistlərin kabinələrində qurulmuş stenokardioqram spirometrlər, ümumi qan analizatorları, elektrositlərin çökmə reaksiyasını ölçən cihazlar qan təhlillərinin aparılmasında, diaqnozun qoyulmasında mühüm əhəmiyyət kəsb edir.

Stasionar şöbədə 8 çarpayılıq uşaq və 34 çarpayılıq böyüklər üçün iki bölmə fəaliyyət göstərir. Dispanserə təmirdən sonra spirometr, kompüterlər, elektrokardioramma, inyeksiyomatlar, infuzomatlar, assoslar, yataq başı monitorlar, xəstələrin daşınması üçün təkərli və brezent xərəklər, EÇS təyini aparatı və digər avadanlıqlar verilib. Dispanserin işçiləri üçün 16 yerlik bufet fəaliyyətə başlayıb.

Dispanserdə təhlükəsizlik kabinələri, termostat, quruducu şkaf, avtoklavlar, mikroskoplar və digər avadanlıqlar xəstələrin müayinə və müalicəsində tibb işçiləri üçün mühüm əhəmiyyət kəsb edir. Buraya müraciət edən xəstələrdə ilkin müayinələr – bəlğəmin, ağciyərlərin rentgenoloji müayinələri və tuberkulin diaqnostika aparılır. Ehtiyac olan hallarda xəstələr əlavə müayinələrə cəlb olunur. Rentgenoloji müayinə üçün stasionar rentgen, rəqəmsal və səyyar rəqəmsal flüoroqrafiya aparatlarından istifadə edilir.

Laboratoriya şöbəsində qanın kliniki və biokimyəvi, bəlğəmin müayinəsi aparılır. Bakterioloji laboratoriya kabinəsində də müasir avadanlıqlar qurulub. Kabinədəki avadanlıqlarla bəlğəmin əkilməsi və bir sıra vərəm əleyhinə dərmanlara həssaslıq təyin olunur. Dispanser tərəfindən Mantu sınağının qoyulması, flüoroqrafik müayinələrin aparılması təqvimə uyğun davam etdirilir.

Qeyd edək ki, ağciyərin və ürəyin fəaliyyətinin bərpasında, tənəffüs funksiyası pisləşən hallarda ağciyərlərə oksigen verilməsində, fizioterapevtik və tənəffüs yolları xəstəliklərində və digər xəstəliklərdə istifadə olunacaq yeni avadanlıqlar bu sahədə tətbiq olunan ən müasir texnologiyaya əsaslanır. Dispanserdə görülən bu işlər səhiyyə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində atılan növbəti addımdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



***Qədim Naxçıvan torpağı nələrə şahid olmadı, kimlər yetişmədi bu torpaqda. Bu torpağın dahi insanları dünyaya səs saldı. Onlar öz rəsm əsərləri, şeirləri, yaradıcılıqları siyasi qüdrəti ilə bu diyarın necə ulu olduğunu bütün dünyaya sübut etdilər. Onlardan biridir daim həqiqət axtarışında olan, bəşəri faciələri ürək ağrısı ilə qələmə alan, özü yozumları ilə milli ədəbiyyat köynəyində bəşəri ədəbiyyat yaradan böyük Azərbaycan yazıçısı Hüseyn Cavid.***

***Yüksələn məhv olar, fəqət enməz!***
***Nuri-həqq daima yanar, sönməz!***

# Cavid sənəti ölməzdir



Ulu Cavid bu cümlələri ilə qarşılayır ev-muzeyinə gələnləri. Bu cümlələri oxuyanda Xalq şairi Mirvarid Dilbazinin ulu öndərə həsr etdiyi "Oğul qeyrəti" şeirindəki bu misraları xatırlayıram:

*Cavidi Vətənə gətirən oğul,*
*Onu öz xalqına yetirən oğul,*
*Xalqının misilsiz qayğılarını*
*Öz çiyni üstünə götürən oğul,*
*Var olsun bu oğul qeyrətin sənin!*

Bəli, 1982-ci ildə sovet rejiminin sərt bir vaxtında Hüseyn Cavidin cəsədinin qalıqlarını Uzaq Sibirdən Vətəninə gətirdən məhz ulu öndər idi. Dahi rəhbər Heydər Əliyevin xüsusi səyi ilə ərsəyə gələn bu hadisə tarixə qızıl hərflərlə yazıldı. Bu hadisə sovet məkanında, yaxın-uzaq xarici ölkələrdə də diqqət mərkəzində oldu. Cavid qədim Naxçıvan torpağında dəfn olundu, əbədiyyət qazandı. Onun ruhu rahatlıq tapdı. Hələ 1981-ci il iyul ayının 21-də Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında dahi rəhbər Heydər Əliyevin verdiyi qərar ulu Cavidin ikinci bəraət sənədi olmuşdur. Həmin qərarda Hüseyn Cavidin ədəbi irsini bir daha geniş surətdə öyrənmək və xatirəsini əbədiləşdirmək üçün bir sıra mühüm işlərin görülməsi nəzərdə tutulmuşdur. Cavidə həsr olunmuş monoqrafiyaların, əsərlərinin 4 cilddə, habelə rus dilində əsərlərinin 2 cilddə, ərəb əlifbası ilə 1 cilddə nəşr olunması, onun ədəbi irsinin toplanıb nəşr edilməsi, əsərlərinin müxtəlif teatrlarda tamaşaya qoyulması, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə abidə ucaldılması, ev-muzeylərinin yaradılması ilə yanaşı, şair-dramaturqun yaradıcılığının daha da dərindən tədqiq edilməsi repressiya illərində aradan götürülən əsərlərinin üzə çıxarılması kimi bir çox işlər məhz ulu öndərin xüsusi qayğısı ilə həyata keçirilmişdir. Dahi rəhbər hələ 1992-ci ildə Naxçıvanda Ali Məclisin Sədri işləyərkən Cavidin 110 illik yubileyinin muxtar respublika səviyyəsində qeyd olunması haqqında qərar imzaladı. Yubiley tədbirində dahi rəhbər demişdir: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin bütün Türk dünyasının ən görkəmli bir simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir, bir yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır".***

Vaxtilə Cavidin nəşinin doğulduğu qədim Naxçıvana gətirilməsinə nail olan dahi rəhbər ikinci dəfə siyasi hakimiyyətə qayıdandan sonra Cavidin adının əbədiləşdirilməsi ilə bağlı bir çox işlər gördü. Şairə Naxçıvan şəhərinin mərkəzində ucaldılan möhtəşəm məqbərə onu sevənlərə əvəzsiz hədiyyə oldu. Böyük şairin anadan olmasının ildönümündə – 1996-cı ilin oktyabrında Hüseyn Cavid məqbərəsinin açılış mərasimində xalqımızın dahi oğlunun bu tarixi fikirləri Cavid irsinə verilən ən yüksək dəyərdir: ***"Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini***



***yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olub. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıb. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur".*** Məqbərənin açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Möhtərəm Heydər Əliyev dühasının bəhrəsi olan Hüseyn Cavid türbəsi Əcəmi yaradıcılığına mənsub Möminə xatın məqbərəsinin davamıdır. Bununla belə Hüseyn Cavid məqbərə-türbəsində şairin özü ilə yanaşı, ailə üzvlərinin – ömür-gün yoldaşı Mişkinaz xanımın, oğlu Ərtoğrol Cavidin dəfn olunduğunu nəzərə alsaq, Cavidlər ailəsi xatirə kompleksinin dünya mədəniyyətinin bənzərsiz, əvəzsiz nümunələrindən biri olduğu sübut edilir".***

Sonrakı illərdə də dahi dramaturqun tanıdılmasına, əsərlərinin yaşadılmasına dövlət qayğısı göstərilib. Belə ki, 2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı ilə şairin ev- muzeyində yenidən əsaslı təmir və bərpa işləri aparılaraq öz əvvəlki görkəminə qaytarılmışdır. Muzeyin ekspozisiyası tamam dəyişdirilərək yenidən qurulmuş, maddi-texniki bazası zənginləşdirilmişdir. Ulu öndər Heydər Əliyevin Sərəncamı ilə 2002-ci ildə böyük ədibin anadan olmasının 120 illik yubileyi Azərbaycanda geniş qeyd olunmuş, bir-birindən maraqlı tədbirlər – konfranslar, gecələr, disputlar, kitab sərgiləri, şeir müsabiqələri keçirilmiş, əsərləri nəşr olunmuşdur.

Ulu öndər Heydər Əliyev yolunun layiqli davamçısı, Onun bütün ideyalarını, arzularını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" 2007-ci il 17 aprel tarixli Sərəncamının Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin il may ayının 15-də imzaladığı Sərəncamla təsdiq edilmiş "Tədbirlər Planı"na uyğun olaraq müxtəlif yubiley tədbirləri həyata keçirilmişdir. Həmin il muxtar respublikanın ali, orta ixtisas təhsili, ümumtəhsil məktəblərində, muzeylərdə, kitabxanalarda, klublarda, mədəniyyət evlərində Hüseyn Cavidin yaradıcılığına aid guşələr yaradılmış, kitab sərgiləri, gecələr, görüşlər təşkil edilmişdir. Tədbirlər planına uyğun olaraq həmin il oktyabr ayının 24-də Naxçıvan şəhərində şair-dramaturq Hüseyn Cavidin 125 illik yubileyinə həsr olunmuş zirvə tədbiri keçirilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, Prezident cənab İlham Əliyevin Hüseyn Cavidin 125 illik yubileyi ilə əlaqədar imzaladığı Sərəncama əsasən şair-dramaturqun ev-muzeyində də geniş Tədbirlər planı tərtib edilmiş və həmin plana əsasən "Hüseyn Cavid – 125" yubiley sərgisi təşkil edilərək muxtar respublikanın mədəni-maarif müəssisələrində nümayiş etdirilmişdir. Muzey ekspozisiyası fondda olan yeni eksponatlarla zənginləşdirilmiş, yeni guşələr yaradılmışdır. Azərbaycan ədəbiyyatının görkəmli siması Hüseyn Cavidə olan diqqət və qayğının nəticəsi olaraq ölkə başçısının müxtəlif illərdə imzaladığı sərəncamlarla görkəmli ədibin 130, 135 illik yubileyləri dövlət səviyyəsində qeyd edilmişdir.

Dahi şairin ev-muzeyində olarkən öyrənirik ki, ötən illər ərzində muzeyin fondu xeyli zənginləşmişdir. Mərhum Turan Cavid atasının Naxçıvan dövrü ilə bağlı eksponatlarını, sənədlərini, fotoşəkillərini muzeyə bağışlamış və hətta muzey yaradılarkən tez-tez Naxçıvana gələrək dəyərli məsləhətlərini vermişdir.

Şairin yaradıcılığı Türk dünyası tərəfindən də sevilmişdir. 2013-cü ildə İstanbulda "Kusena" yayımları nəşriyyatında ilk dəfə olaraq türk dilində Hüseyn Cavidin "Seçilmiş əsərləri"nin nəşr olunaraq həmin nəşriyyatın əməkdaşı Selma Sukas tərəfindən muzeyə hədiyyə edilmişdir. 2018-ci ildə Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində böyük ədibin özbək dilində "Seçilmiş əsərləri" nəşr olunub.

*Bu gün qədim Naxçıvanın görkəmli yerində ucaldılan Hüseyn Cavid məqbərəsi və ev-muzeyi hər bir sakinimizə qürur bəxş etməklə yanaşı, dövlətimizin ədəbiyyatımıza qayğı və dəyərindən də xəbər verir. İnsanları gözəlliyə, işığa, bir sözlə, milli mənliyə səsləyən Cavid sənəti əbədiyaşardır deyir.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Çağırışçılar hərbi xidmətə yola salınıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2021-ci il oktyabr ayının 1-dən 30-dək ölkəmizin hər yerində gənclərin həqiqi hərbi xidmətə çağırışı davam etdirilir.

Dünən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər idarəsində çağırışçıların həqiqi hərbi xidmətə yola salınması ilə əlaqədar tədbir keçirilib.

Azərbaycanın Dövlət Himni ilə başlayan tədbirdə öncə Vətən müharibəsində və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Naxçıvan Şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Davud Süleymanov, Naxçıvan Şəhər Prokurorluğunun əməkdaşı İbrahim Hüseynov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin nümayəndəsi İsmayıl Gülməmmədov və digərləri çıxış edərək çağırışçılara tövsiyə və arzularını çatdırıblar.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan şəhər idarəsinin rəisi Anar Aqilov hərbi xidmətə yola düşmələri münasibətilə çağırışçılara təbriklərini çatdırıb, onlara şərəflə xidmət etmələrini tövsiyə edib.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti***

*Oktyabrın 22-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü, Uşaq Musiqi və İncəsənət Məktəbinin müəllimi Nizami Məmmədovun fərdi yaradıcılıq sərgisi təşkil olunub.*

## Fərdi yaradıcılıq sərgisi təşkil olunub

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva açaraq sərginin keçirilməsinin əhəmiyyətindən və rəssamın özünəməxsus yaradıcılıq yolundan danışıb. Bildirilib ki, Nizami Məmmədovun yaradıcılığı tanınan və sevilləndir. Qeyd edib ki, Nizami Məmmədov 22 oktyabr 1966-cı ildə Naxçıvan şəhərində anadan olub. İlk olaraq 1982-ci ildə Naxçıvan şəhər 1 nömrəli orta məktəbdə fərdi sərgisi keçirilib. 1988-1995- ci illərdə Naxçıvan Rəssamlar İttifaqında keçirilən sərgilərdə iştirak edib. 2011-2020-ci illərdə Uşaq Musiqi və İncəsənət Məktəbinin müəllimi, şöbə müdiri vəzifəsində çalışıb. 1987-ci ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sərgilərində iştirak edir, 2019-cu ildən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvüdür. Ülviyyə Həmzəyeva rəssamı təbrik edib, bundan sonrakı yaradıcılıq fəaliyyətində uğurlar arzulayıb.

Azərbaycan Respublikasının Əməkdar rəssamı Həsən Qurbanov, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov və başqaları çıxış edərək rəssamı təbrik ediblər.

Sonda tədbir iştirakçıları sərgi ilə tanış olublar. Qeyd edək ki, sərgidə rəssamın 50 əsəri nümayiş olunub.

✍ **Aytac CƏFƏRLİ**

## Elan

Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatı ilə birgə "Müstəqillik illərində inkişafın Naxçıvan modeli" tələbələrarası yaradıcılıq müsabiqəsi elan edir. Layihənin əsas məqsədi ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin, magistr və doktorantların gözü ilə Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki yüksəliş və tərəqqi dövrünə nəzər salmaq, muxtar respublikamızın bütün sahələrindəki inkişafını, bu inkişafı həyata keçirən uğurlu strategiyanı öyrənmək və təbliğ etmək, bu sahədəki yaradıcılıq fəaliyyətinə dəstək vermək, iştirakçıların bacarıqlarını və ideyalarını üzə çıxarmaq, ictimaiyyəti məlumatlandırmaq, qədim və zəngin Naxçıvan tarixini müxtəlif yaradıcı materiallarla təmin etməkdir.

Yaradıcılıq müsabiqəsində muxtar respublikamızın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, magistr və doktorantları iştirak edə bilərlər.

Müsabiqə elan dərc olunduğu gündən 2021-ci il dekabr ayının 5-dək keçiriləcəkdir. Yaradıcılıq müsabiqəsində iştirak etmək istəyən hər bir tələbə hazırladığı işləri 2021-ci il dekabr ayının 5-dək işçi qrupu tərəfindən yaradılmış elektron poçt *(yaradicigenc@gmail.com)* ünvanına göndərməli və ya Naxçıvan Dövlət Universitetinin əsas korpusunun 5-ci mərtəbəsindəki 502 nömrəli otağa təqdim etməlidir;

Müsabiqədə 4 (dörd) istiqamət üzrə birinci, ikinci, üçüncü yerlərə çıxan tələbələrə mükafat, iştirakçıların hər birinə sertifikat təqdim ediləcək.

Qaliblər 16 dekabr 2021-ci il tarixdə mükafatlandırılacaqlar.

***Naxçıvan Dövlət Universiteti və Yeni Azərbaycan Partiyası Universitet şəhərciyi ərazi ilk partiya təşkilatı***

***İtmişdir***

Şərur rayon Xələc kənd sakini Həsənov Eynulla Kazım oğlunun adına verilmiş JN-275A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 879